Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 21-22 (9205-9206) | 25 noyabr 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

# Azərbaycan iqtisadiyyatı dünyada maliyyə-iqtisadi böhranın davam etdiyi şəraitdə uğurla inkişaf edir

## Prezident İlham ƏLİYEV: “Mən Azərbaycanın uğurlu inkişafı ilə bağlı heç bir problem görmürəm. Biz 2016-cı ildə də uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik”

**Dünyada iqtisadi-maliyyə böhranının yeni mərhələyə keçməsi bir sıra problemlərə də yol açıb. Xüsusilə Avrasiya məkanında böhran daha da dərinləşərək ciddi forma alıb. Avropa İttifaqına üzv ölkələr böyük humanitar fəlakətlə üz-üzədir, hazırda yüz minlərlə qaçqın Avropaya üz tutub. Sığınacaq tapmaq, öz canını qurtarmaq üçün hazırda onların böyük köçü müşahidə olunur. Azərbaycan iqtisadiyyatı isə bütün bu mənfi mənzərə fonunda uğurla inkişaf edir.**

Azərbaycan dövləti dünya ölkələrini cənginə alan maliyyə-iqtisadi böhranın yaratdığı çətinlikləri qabaqlayıcı tədbirlər həyata keçirməklə aradan qaldıraraq davamlı inkişafını təmin edib. Hökumətin çevik və işlək fəaliyyət mexanizmlərinə əsaslanmaqla müəyyənləşdirdiyi sığortalayıcı mexanizmlərin hər bir mərhələ üzrə işə salınması, daxili maliyyə mənbələrinin bu destruktiv prosesə qarşı səfərbər edilməsi son nəticədə respublikanın qlobal böhrana potensial müqavimət əzmini gücləndirib. Antiböhran paketinə potensial gəlirlərin vergiyə cəlb olunması, xərclərin daha şəffaf idarə edilməsi, büdcədən maliyyələşən müəssisə və təşkilatlar üzrə maliyyə əməliyyatlarının beynəlxalq standartlara cavab verən mühasibat uçotu qaydalarına uyğunlaşdırılması, kommunal, istehlak, enerji, yanacaq, qaz, su sərfiyyatının qənaətlə aparılması, kommunal sektorda fəaliyyət göstərən təşkilatlar tərəfindən alınan materialların dəyərinin vaxtında və tam ödənilməsi kimi vacib məsələlər daxil olub. Dövlətin vətəndaşların həyati tələbatlarının ödənilməsinə göstərdiyi qayğı özünü bilavasitə sosial təminat sistemində büruzə verir. Vətəndaşların sosial ehtiyaclarının dolğun şəkildə ödənilməsinə xidmət edən iqtisadi siyasət ümumən insan amilinin inkişafına təkan verir. Hökumət azad iqtisadi münasibətlərə, azad rəqabətə, özəl mülkiyyətçiliyə və sahibkarlığın inkişafına zəruri kömək göstərməklə yanaşı, cəmiyyətdə himayəyə, dəstəyə ehtiyacı olan təbəqəni də nəzərdən qaçırmır.



Bazar iqtisadiyyatı prinsipləri bir sıra liberal xüsusiyyətləri ilə yanaşı, əhalinin sosial müdafiəsi institutunun yaradılması kimi sosialyönümlü tədbirləri də özündə ehtiva edir. Bu mənada bazar iqtisadiyyatı və əhalinin sosial müdafiəsi bir-biri ilə üzvi şəkildə bağlıdır. Sosial müdafiə sistemi ilk növbədə hər bir insanın konstitusion hüquqlarının müdafiəsini nəzərdə tutur. Onun vasitəsilə həm də əhalinin əmlak sahəsində mövcud olan bərabərsizliyinin aradan qaldırılmasını nəzərdə tutan, vətəndaşların bütün təbəqələri üçün eyni başlanğıc şərtləri təmin edən sosial ədalət prinsipləri reallaşır. Qlobal böhran şəraitində daxili istehsalın təşviq edilməsi, sahibkarlara kreditlərin verilməsi, özəl sektorun maraqlarının müdafiəsi respublikanın neft amilindən asılılığını əhəmiyyətli dərəcə azaldıb. Cənab İlham Əliyev bildirib ki, qeyri-neft sektorunda qazanılan iqtisadi uğurlar Azərbaycan iqtisadiyyatının neftdən asılı olması ilə bağlı qərəzli iddiaları alt-üst edir. Prezident İlham Əliyev Azərbaycanın inkişafının davamlı olacağını bildirib: “Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Qeyri-neft iqtisadiyyatı 9 faizdən çox artmışdır. İnflyasiya çox aşağı səviyyədədir. Kənd təsərrüfatı 7,3 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faiz artmışdır. Yəni, bu, böhranlı ildə əldə edilən nailiyyətlərdir və dünya miqyasında buna bənzər yüksək nəticələr görmək çox çətindir. Yenə də nəyə görə? İlk növbədə, bizim güclü siyasi iradəmiz var və biz öz siyasətimizi ancaq Azərbaycan xalqının maraqları üzərində qurmuşuq. İkincisi, biz uzun illər düşünülmüş iqtisadi siyasət əsasında islahatlar aparmışıq. Bu islahatlar bu gün beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir.

Dövlət başçısı İlham Əliyev belə bir reallığı daim önə çəkir ki, hüquqların müdafiəsi sahəsində dövlətin başlıca vəzifəsi mütərəqqi iqtisadi və sosial islahatları həyata keçirmək, iqtisadi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmasına şərait yaratmaqdır. Azərbaycanda həyata keçirilən çevik büdcə-vergi siyasəti nəticəsində dövlətin iqtisadi qüdrətinin daha da artırılması, regionların, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, istehsal sahələrinin və infrastrukturun müasir tələblərə uyğun yenidən qurulması, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, dövlət büdcəsi sosial və investisiyayönümlü, inkişaf və quruculuq büdcəsi, iqtisadi islahatların və dövlət proqramlarının maliyyələşmə mənbəyi olub.

İqtisadiyyatın sabit tempini qorumaq üçün regional inkişafda tarazlığın, tarixi məşğulluq ənənələrinin qorunub saxlanılması vacib şərtlərdəndir. Dövlət başçısı İlham Əliyevin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları da bu baxımdan mühüm əhəmiyyət kəsb edib. Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər regionlarda sahibkarlığın inkişafını sürətləndirmiş, oradakı əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan kifayət qədər səmərəli istifadəyə imkan vermiş, iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır.

Regional inkişafa kompleks məsələ kimi yanaşan dövlət başçısı İlham Əliyev regionların sosial-iqtisadi inkişafında davamlılığın təmin edilməsi məqsədilə ilə 27 fevral 2014-cü ildə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında fərman imzaladı. Dövlət proqramında müəyyən edilmiş məqsədlərə nail olmaq üçün ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi; infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi; sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi; iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi nəzərdə tutulub. III Dövlət Proqramının qəbul edilməsindən ötən bir il ərzində əldə olunan nəticələr bütün regionların davamlı inkişaf etdiyini və qarşıya qoyulan vəzifələrin uğurla gerçəkləşdiyini sübuta yetirdi. İnfrastrukturun yeniləşdirilməsi insanların firavan və rahat yaşayışı, sahibkarlığın dinamik inkişafı məsələləri ilə yanaşı, bu gün həm də ölkənin milli təhlükəsizliyi ilə bağlı məsələdir. Həyata keçirilən şaxələndirmə tədbirləri, sahibkarlığın inkişafı, investisiya mühitinin daha da yaxşılaşdırılması nəticəsində qeyri-neft sektorunun dinamik inkişafı davam etmişdir. Ümumilikdə, regional inkişaf sahəsində əldə olunmuş uğurlu nəticələr deməyə əsas verir ki, respublikamız qlobal böhrandan irəli gələn çətinliklərə baxmayaraq inkişaf edir.

“Mən Azərbaycanın uğurlu inkişafı ilə bağlı heç bir problem görmürəm. Biz 2016-cı ildə də uğurla inkişaf edəcəyik, ölkə qarşısında duran bütün vəzifələri icra edəcəyik” - deyən Prezident İlham Əliyev dünyada iqtisadi-maliyyə böhranının kəskinləşməsinə baxmayaraq, Azərbaycanın daha da güclənməsinə xidmət edən kompleks islahatların davam etdiriləcəyinə əminlik ifadə edib. Əldə olunan nəticələr ölkədə həyata keçirilən çoxşaxəli dövlət siyasətinin əsasında insan və şəxsiyyət amilinin dayandığını bir daha təsdiqləyir.

# Qələbələr Partiyası

## 23 il əvvəl yaranan Yeni Azərbaycan Partiyası dövlətə və xalqa xidmət missiyasını şərəflə daşıyır

***Mövcud ideoloji-siyasi durumun doğurduğu obyektiv şəraitdən irəli gələrək yaranan Yeni Azərbaycan Partiyası ilk gündən müstəqilliyə yeni qovuşmuş respublikamızda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçdi. Çünki o vaxtadək fəaliyyət göstərən heç bir siyasi qurum ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilməmişdi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi dairələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar.***

Ona görə də 23 il əvvəl - 1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının meydana çıxması ölkəmizdə baş verən siyasi-ictimai proseslərin nəticəsi idi. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış lideri Heydər Əliyevin ətrafında sıx birləşməklə YAP-ı təsis etdilər. Partiya o zamankı iqtidara müxalifətdə idi və bu yola qədəm qoyan insanlar hər addımda hakim dairələrin təzyiqləri ilə üzləşirdilər. Lakin bu insanlar əyilmədilər, heç bir hədə-qorxu, təhdidlər onların əzmini qıra bilmədi. Beləliklə, Azərbaycanın işıqlı gələcəyini arzulayaraq bu yola qədəm qoyan insanların iradəsinin ifadəsi kimi vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyaları üzərində yaranan YAP tezliklə Azərbaycanın siyasi həyatında günəş kimi parladı.

YAP o zaman müxalifətdə olsa da, bəzi indiki müxalifət partiyalarından fərqli olaraq, Azərbaycanın dövlətçiliyinə, milli maraqlarına qarşı deyildi. YAP o vaxt hakimiyyətə hərbi çevrilişlə gələn, ölkəni anarxiya, xaos girdabına salan, Ermənistanla müharibədə hərbi üstünlüyü əldən verən, yeni qazanılmış müstəqilliyi itirmək təhlükəsi qarşısında qoyan qüvvələrə qarşı müxalifətdə idi. Ona görə də 1992-1993-cü illərin ağır siyasi durumu, ölkəni bürüyən böhranın nəticəsi olaraq ayağa qalxan Azərbaycan xalqı təkidlə Heydər Əliyevi hakimiyyət sükanının arxasına keçməyə, ölkənin taleyini həll etməyə çağırdı. 1993-cü ilin iyun hadisələri isə AXC-Müsavat iqtidarının yarıtmazlığının pik nöqtəsi oldu. Bu hadisələrdən sonra, iyunun 9-da Heydər Əliyev ölkə əhalisinin təkidli istəyi ilə Bakıya gəldi və proseslərin sonrakı gedişi ulu öndərə ölkə rəhbəri, YAP-a isə hakim partiya statusunu daşımağı həvalə etdi.

Ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşdırılması, dövlət quruculuğu prosesi başlandı. Bütün silahlı birləşmələr qanunsuz elan edilərək yeni ordu quruculuğuna start verildi və cəbhədəki hərbi əməliyyatlar vahid komandanlıqdan idarə olundu. Tezliklə ulu öndərin başladığı quruculuq prosesi bütün sahələrdə öz effektini verməyə başladı. Təbii ki, bu uğurlu siyasi xətt YAP-ı ölkənin siyasi səhnəsinin ön cərgəsinə çıxardı. Azərbaycan xalqı YAP-ı Heydər Əliyev partiyası kimi qəbul etdi. Çünki bu təşkilat ümummilli liderin başladığı genişmiqyaslı islahatların həyata keçirilməsində yaxından iştirak edərək onun siyasi və ideoloji irsinin, dövlətçilik təcrübəsinin və quruculuq fəaliyyətinin harmoniyasını özündə əks etdirirdi.

Yaranan qısa müddətdən sonra iqtidara gələn və 22 ildir Azərbaycan siyasətinin avanqardı olan Yeni Azərbaycan Partiyasının respublikamızın hakim partiyası statusunu ləyaqətlə və uğurla daşımasını şərtləndirən əsas səbəb də məhz onun ideoloji siyasi kursunun dövlətin və xalqın maraqlarına cavab verməsidir. 1993-cü ildən hakim partiyaya çevrilən YAP bu statusu qazandığı ilk gündən proqramında qarşıya qoyduğu vəzifələrin icrasına, ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirməyə, Azərbaycanı düçar olduğu təhlükə və böhranlardan qurtarmaq üçün özünün məqsədyönlü fəaliyyətinə başladı. Güclü lideri, mükəmməl proqramı, təkmil siyasi platforması, qətiyyətli mövqeyi sayəsində, digər tərəfdən azərbaycançılıq və dövlətçilik mövqeyində durduğu üçün öz sıralarında yüz minlərlə üzvü birləşdirərək əsl ümumxalq partiyasına çevrildi. Öz məramında və praktik fəaliyyətində demokratik prinsiplərə, ümumbəşəri dəyərlərlə milli xüsusiyyətlərin vəhdətinə, hüquqi dövlət, vətəndaş cəmiyyəti, sərbəst iqtisadiyyat yaradılmasına üstünlük verdi, güclü sosial müdafiə proqramı ilə fəaliyyət göstərməyə başladı. 1993-cü ildən ötən müddətdə ölkəmizdə keçirilən bütün seçkilərin qalibi YAP-ın namizədləri olmuşlar. Ölkəmizdə çoxlu sayda siyasi partiya mövcud olsa da, onların heç biri sosial bazasına, nüfuzuna və gücünə görə hakim Yeni Azərbaycan Partiyası ilə müqayisə edilmək imkanında deyil. Bu müvəffəqiyyətin əsas səbəbi isə əbədiyaşar lider Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinin müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasına verdiyi töhfələrdir. Ulu öndər Heydər Əliyev çıxışlarının birində Yeni Azərbaycan Partiyası barədə deyib: “Öz aqibətini Yeni Azərbaycan Partiyası ilə bağlayanlar səhv etməmişlər. Tarix, keçən illər bunu təsdiq etdi. Yeni Azərbaycan Partiyasının sədrinin, Azərbaycan Prezidentinin həyata keçirdiyi daxili və xarici siyasət ilbəil uğurlar gətirir, Azərbaycan yüksəlir, inkişaf edir”.

Ümummilli lider Heydər Əliyev 2003-cü il oktyabr ayının 1-də Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevə, həm də YAP-a yüksək önəm verdiyini qeyd etmiş, xalqa ən düzgün seçim ünvanı kimi məhz İlham Əliyevi və Yeni Azərbaycan Partiyasını göstərmişdir. Həmin il Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də Yeni Azərbaycan Partiyasının zəfəri, nailiyyəti idi. 2003, 2008 və 2013-cü illərin oktyabr aylarında Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi prezident seçkilərinə qatılan cənab İlham Əliyevin qələbəsi həm də YAP-ın zəfəridir. Xüsusilə qeyd etməliyik ki, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı, onun ölməz ideyalarından güc alan Yeni Azərbaycan Partiyasının bütün seçkilərdə mütləq qələbə qazanaraq cəmiyyətdəki lider statusunu qoruyub saxlaması təbii qanunauyğunluq kimi nəzərdən keçirilməlidir. Hər bir seçki Azərbaycan xalqının Heydər Əliyev ideallarına sədaqətini, ulu öndərin müəyyən etdiyi strateji inkişaf kursunu bu gün də əzmlə həyata keçirən Prezident İlham Əliyevin apardığı siyasətin uğurlarına ümumxalq inamını təcəssüm etdirmişdir. Xalqımız bu siyasətin həyatımıza gətirdiyi nailiyyətlərə, uğurlu sabahına doğru inamla irəliləyən Azərbaycana səs vermişdir.

Bu gün YAP-da Heydər Əliyev missiyası şərəflə, məsuliyyətlə, fədakarlıqla davam etdirilir, nəticəsi misilsiz nailiyyətlər olan alternativsiz siyasi kursla müşayiət olunur. Bu missiya əsasını ulu öndərin qoyduğu milli inkişaf strategiyasının daha genişmiqyaslı davamıdır. Son parlament seçkisi də YAP-ın cəmiyyətdəki yerinin möhkəm olduğunu, dövlətçiliyimizin gücləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq xalqın bu təşkilata böyük etimad göstərdiyini təsdiq etdi.

YAP ənənəvi olaraq hər bir seçki kampaniyasına kifayət qədər ciddi şəkildə hazırlaşır. 2015-ci ilin parlament seçkiləri də bu mənada istisna olmadı. Bu seçkidəki qələbə bir tərəfdən YAP-ın seçki kampaniyasının uğurunu təsdiq etdi, digər tərəfdən ölkəmizin siyasi-ictimai həyatındakı mövqeyini və rolunu bir daha müəyyənləşdirdi. Bu seçkinin ortaya qoyduğu reallıqları bir daha nəzərdən keçirsək, belə bir amili də qeyd etməliyik ki, seçkinin nəticəsi YAP-ın ölkəmizin həyatında alternativsiz siyasi güc olduğunu bir daha təsdiqlədi. Ən əsası YAP-ın əldə etdiyi qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır. Bu gün sıralarında 662 min nəfərdən artıq insanı birləşdirən YAP öz məramında və praktik fəaliyyətində demokratik prinsiplərə, ümumbəşəri dəyərlərlə milli xüsusiyyətlərin vəhdətinə, hüquqi dövlət, vətəndaş cəmiyyəti, sərbəst iqtisadiyyat yaradılmasına üstünlük verir və eyni zamanda, güclü sosial müdafiə proqramı ilə fəaliyyət göstərir. Malik olduğu potensial, xalqın inamı, ideyalarının mükəmməlliyi, yaradıcısının əbədi mövcud olacaq nüfuzu YAP-ın hələ uzun onilliklər boyu hakim partiya statusunu qoruyacağına güclü təminatdır.

**“Azərbaycan”**

## 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
| --- | --- | --- | --- | --- |
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**
**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# Daş Salahlı kəndində həkim məntəqəsinin açılışı olmuşdur



**Qazax rayonunun Daş Salahlı kəndində Yaponiya Səfirliyinin xəttilə tikilmiş həkim məntəqəsinin açılışı olmuşdur. Tədbirdə rayon İcra Hakmiyyətinin Başçısı Ayaz Əsgərov, Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Tsuquo Takahaşi, Səfirliyin qrant məsləhətçisi xanım Tsuda Miki, ”İnkişaf-2006” Sosial Dəstək İctimai Birliyinin icraçı direktoru Füzuli Abıyev, icma sədri xanım Flora Həsənova, Qazax rayon Mərkəzi Xəstəxanasının baş həkimi Arzu Novruzov, Qazax Sement Zavodu MMC-nin direktoru Hikmət Qəribov, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**

Mərasimi Füzuli Abıyev açdıqdan sonra Azərbaycan Respublikasının və Yaponiya hökumətinin dövlət himnləri səsləndirilmişdir. Səfir Tsuquo Takahaşi, Ayaz Əsgərov və xanım Flora Həsənova çıxış etmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov öz çıxışında rayonda son illərdə sosial-iqtisadi və tikinti abadlıq sahəsində görülmüş işlər barədə məlumat verdikdən sonra söyləmişdir ki, açılış mərasiminə toplaşdığımız həkim məntəqəsinin Yaponiya Səfirliyinin, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin və Qazax rayon İcra Hakmiyyətinin birgə razılığı əsasında cari ilin aprel ayında tikintisinə başlanılmışdır. Yaponiya Səfirliyi tərəfindən tikilmiş bu bina Azərbycan-Yaponiya dostluğunun və əməkdaşlığının bariz nümunəsidir. Əsası ulu öndər, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bu dostluq və əməkdaşlıq möhtərəm Prezident İlham Əliyev cənabları tərəfindən daha da inkişaf etdirilmiş və möhkəmləndirilmişdir. Bu gün biz hamımız bu dostluğun necə gözəl bəhrə verdiyinin şahidi oluruq. Həmin dostluğun bəhrəsi kimi tikilmiş həkim məntəqəsinin sahəsi 216 km2 olmaqla 8 otaqdan ibarətdir. Tikinti işləri müasir standartlara uyğun aparılmışdır və bütün tələblərə cavab verir. Həkim məntəqəsi 10 mindən çox əhaliyə tibbi xidmət göstərəcəkdir. Bundan başqa, həkim məntəqəsi lazım olan bütün tibb avadanlıqları, müasir aparatura və inventarlarla tam təmin olunmuşdur.

Sonra cənab Tsuquo Takahaşi və kəndin icma sədri xanım Flora Həsənova çıxış etmişlər. Onlar Yaponiya dövləti və Azərbaycan Respublikası arasında mövcud olan sosial- iqtisadi, elm, təhsil, səhiyyə sahəsindəki əlaqələrdən danışmış və gələcəkdə də bu cür əlaqələrin qorunub saxlanılması və daha da möhkəmləndirilməsinə böyük ehtiyac olduğunu bildirmişlər.

Sonda həkim məntəqəsinə baxış keçirilmiş, mediya üçün müsahibələr verilmiş, xatirə ağacları əkilmiş və şəkil çəkdirilmişdir.



# Dövlət Miqrasiya Xidməti rayonumuzda “Açıq qapı günü” - vətəndaş forumu keçirmişdir




**Dövlət Miqrasiya Xidməti Qazax rayonunda “Açıq qapı günü”-vətəndaş forumu keçirmişdir. Tədbirdə rayondakı yerli İcra Hakimiyyəti, özünüidarəetmə orqanlarının rəhbərləri, QHT, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişdir.**

Rayon İcra Hakmiyyəti Başçısının müavini Tahir Musayev tədbiri giriş sözü ilə açmış, keçirilən tədbirin mahiyyəti və əhəmiyyəti barədə forum iştirakçılarına məlumat vermişdir.

Dövlət Miqrasiya Xidmətinin Gəncə Regional Miqrasiya İdarəsinin rəis müavini Orxan Xıdırov çıxış etmiş və bildirmişdir ki, bu gün ölkənin bütün regionlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə daha yaxından xidmət göstərilməsi, onların problemlərinin operativ həll olunması məqsədi ilə 8 regional miqrasiya idarəsi fəaliyyət göstərir.

Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq Məsələləri Baş İdarəsinin Vətəndaşlıq Məsələlərinin Həlli İdarəsinin rəis müavini Cəmil Hüseynov ”DMX və vətəndaşlıq məsələlərinin həlli”, DMX-in əməkdaşları Niyazi Abbasov ”DMX və informasiya kommunikasiya texnologiyaları (elektron xidmətlər)”, Emin Allahverdiyev ”Vətəndaşlıq məsələləri və qanunvericilik (Miqrasiya Məcəlləsi)”, DMX-in Mətbuatla Əlaqələr şöbəsinin rəisi Füzuli İsmayılov ”DMX ilə bağlı vətəndaşların hüquqi biliklərinin artırılmasında maarifləndirmə tədbirlərinin rolu” mövzularında məruzə ilə çıxış etmişlər.

Məruzə və çıxışlarda bildirilmişdir ki, Qazax rayonunda Dövlət Miqrasiya Xidməti tərəfindən “Açıq qapı günü” - vətəndaş forumu “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”na uyğun olaraq həyata keçirilir.

Ölkə Prezidenti İlham Əliyev cənablarının diqqət və qayğısı ilə əhatə olunmuş DMX miqrasiya proseslərinin vahid və çevik prosedurlar əsasında tənzimlənməsi, sənədləşmənin sadələşdirilməsi, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin rahatlığının təmin edilməsi, onların hüquqlarının müdafiəsi sahəsində səmərəliliyin artırılması istiqamətində tədbirləri daha da genişləndirib.

2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında “bir pəncərə” prinsipinin tətbiq edildiyi gündən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqələrini və etibarlı pasportlarını təqdim etməklə, heç bir viza almadan ölkə ərazisindən gedə və ölkəyə qayıda bilirlər.

Forumda diqqətə çatdırılıb ki, əvvəlki qanunvericilik müvəqqəti yaşamaq üçün icazənin, o cümlədən əcnəbilərin ölkəmizdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin müddətinin dörd dəfədən artıq uzadılamasına yol vermirdi, amma hazırkı qanunvericiliklə bu məhdudiyyət aradan qaldırılıb. Eyni zamanda, Azərbaycan Respublikasının vətəndaşı ilə nigahda olan, qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslərə, eləcə də himayəsində 18 yaşına çatmamış və ya I qrup əlil Azərbaycan Respublikasının vətəndaşı olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin alınması tələb olunmur.

“Açıq qapı” günündə o da qeyd olunub ki, müstəsna hal kimi təhlükəli yoluxucu xəstəlik virus daşıyıcısı olan və Azərbaycan vətəndaşı ilə nigahda olan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə respublika ərazisində müvəqqəti və ya daimi yaşama icazələrinin verilməsi də Miqrasiya Məcəlləsində öz əksini tapıb.

Yetkinlik yaşına çatmayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumunun məbləğinin yetkinlik yaşına çatmışlardan iki dəfə az müəyyənləşdirilməsi də yeniliklərdən biridir. Məsələn, 3 ayadək müvəqqəti yaşamaq üçün icazə almağa görə yetkinlik yaşına çatmış əcnəbi 30 manat ödədiyi halda yetkinlik yaşına çatmayan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs üçün cəmi 15 manat ödənilir.

“Açıq qapı” günü iştirakçılarının nəzərinə çatdırılıb ki, Dövlət Miqrasiya Xidməti tərəfindən ASAN xidmət mərkəzlərində bir neçə xidmət növü təqdim olunur. Belə ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin respublikamızda müvəqqəti və yaxud daimi yaşama, həmçinin onların ölkəmizdə haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrinin verilməsi kimi müraciətlər qəbul edilir.

Bu gün Dövlət Miqrasiya Xidmətinin Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə hər bir əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin hansı tarixdə ölkəyə daxil olduğuna, harada yaşadığına, işlədiyinə və nə vaxt ölkəni tərk etdiyinə tam nəzarət olunduğu bildirilib.

Ölkədə qalma müddətinə müvafiq olaraq bu ilin 10 ayı ərzində 589.454 nəfərin olduğu yer üzrə qeydiyyata alındığı, 22.886 əcnəbi və vətəndaşlığı olmayan şəxs tərəfindən ölkə ərazisində olma, müvəqqəti və daimi yaşama qaydalarına əməl edilməməsi, habelə etibarsız sənədlərlə yaşama hallarına görə inzibati qanunvericiliyin tələblərinin pozulması hallarının müəyyən olunduğu açıqlanıb.

Vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı Dövlət Miqrasiya Xidməti tərəfindən görülən tədbirlərdən ətraflı söhbət açılıb. Qeyd olunub ki, vətəndaşsızlıq hallarının qısa bir zamanda aradan qaldırılması üçün Xidmət tərəfindən ölkənin bütün regionları üzrə müvafiq işlər görülməkdədir. Forumda “Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Saziş”in icrası ilə bağlı görülmüş işlər haqqında məlumat verilib. “Açıq qapı” günündə elektron xidmətlərdən istifadə qaydaları əyani şəkildə izah olunub. DMX-nin təqdim etdiyi 11 elektron xidmətdən 10-nun elektron hökumət portalına qoşulduğu vurğulanıb.

Sonda DMX-in əməkdaşları tərəfindən iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**“Kitabi-Dədə Qorqud”un alman alimi Fridrix fon Dits tərəfindən ilk tərcüməsi, nəşri və dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur. Bununla əlaqədar olaraq Qazax rayon İcra Hakimiyyəti Başçısının 11 noyabr 2015-ci il tarixli Sərəncamına əsasən tədbirlər planı hazırlanmışdır.**

Tədbirlər planında “Kitabi-Dədə Qorqud”un alman dilinə tərcüməsi və nəşrinin 200 illik yubileyi münasibətilə Qazax rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində kitab sərgisinin təşkil edilməsi öz əksini tapmışdır.

Sənəddə “Kitabi-Dədə Qorqud”un alman dilinə tərcüməsi və nəşrinin 200 illik yubileyi münasibətilə Qazax rayon Mədəniyyət şöbəsi, Mərkəzləşdirilmiş Kitabxana Sistemi, Təhsil şöbəsi, Gənclər və İdman İdarəsi, Azərbaycan Müəllimlər İnstitutu Qazax filialının iştirakı ilə dəyirmi masanın keçirilməsi də nəzərdə tutulmuşdur.

Tədbirlər planına əsasən “Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illik yubileyinə həsr olunmuş yazıların ”Göyəzən” rayon qəzetində dərc edilməsi tapşırılmışdır.

“Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illik yubileyi münasibətilə rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında rəsm müsabiqəsinin keçirilməsi də tövsiyə olunmuşdur.

Həmçinin “Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illik yubileyi münasibətilə Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialı tərəfindən yubiley tədbirinin keçirilməsi də tədbirlər planında göstərilmişdir.

O cümlədən tədbirlər planında Qazax şəhər Mədəniyyət sarayında “Kitabi-Dədə Qorqud”un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illik yubileyi münasibətilə ədəbi-bədii tədbirin keçirilməsi qeyd edilmişdir.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**“GÖYƏZƏN”**

## YENİ AZƏRBAYCAN PARTİYASI-23

# 23 İL ÖNCƏ



**Yeni Azərbaycan Partiyasının yaranmasının 23-cü ildönümü münasibətilə toplantı keçirilmişdir. YAP Qazax rayon təşkilatının akt zalında keçirilən toplantıda idarə, müəssisə rəhbərləri, KİV nümayəndələri, partiya üzvləri iştirak etmişdir.**

Toplantı iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin büstü önünə gül-çiçək dəstələri qoymuş və əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov tədbiri giriş sözü ilə açaraq geniş məruzə ilə çıxış etmişdir. YAP-ın yaradılması, uğurları, bu günü və gələcəyi haqqında toplantı iştirakçılarına ətraflı məlumat vermişdir. Bildirmişdir ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqil dövlət kimi inkişafında, tərəqqisində, müstəqilliyimizin daimi, dönməz və əbədi olmasında misilsiz xidmətlər göstərmişdir. H.Pənahov qeyd etmişdir ki, ölkədə sosial-iqtisadi, ictimai-siyasi vəziyyətin həddən artıq mürəkkəb və çətin olduğu bir vaxtda dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də təsis edilən Yeni Azərbaycan Partiyası qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən əsas siyasi qüvvəyə çevrilmişdir. Bu gün qürur hissi ilə deməliyik ki, artıq Yeni Azərbaycan Partiyasının 650 mindən artıq üzvü vardır. Bu, təkcə statistika deyil, həm də vətəndaşlarımızın Azərbaycanın bugünkü reallığına verdiyi qiymət və prezidentimiz, partiyamızın sədri İlham Əliyev cənablarının həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə olan münasibətlərinin ifadəsidir. Biz əminik ki, Yeni Azərbaycan Partiyası möhtərəm prezidentimiz, partiyamızın sədri cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlara və qələbələrə imza atacaqdır.

Sonra partiyanın şura üzvləri Abbas Göyüşov, Tərlan Bədəlova, YAP rayon Təşkilatı Qadınlar Şurasının sədri Asya Alhüseynova, partiyanın AMİ Qazax filialının ərazi ilk partiya təşkilatının sədr müavini Məmməd Yusifov və başqaları çıxış edərək partiyanın 23 il ərzində gördüyü işlər, qazandığı uğurlar və keçdiyi şərəfli inkişaf yolundan danışmışlar.

Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbirdə çıxış edərək bütün partiya üzvlərini YAP-ın yaradılmasının 23 illiyi münasibətilə təbrik etmişdir. Bildirmişdir ki, yaradılmasının 23 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası milli dövlətçilik ənənələrinin formalaşmasında, respublikamızın bir çox ölkə əhəmiyyətli problemlərinin aradan qaldırılmasında həlledici rol oynayaraq xalqımızın tarixinin şərəfli səhifələrindən birinə çevrilmişdir. 1992-ci ildə ulu öndər Heydər Əliyevin xeyir-duası ilə Azərbaycanı düşdüyü bütün bəlalardan xilas etmək yolunda atılan ilk müdrik addımlardan biri Yeni Azərbaycan Partiyasının yaradılması oldu. YAP qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi partiyasına çevrildi. Bu partiya Azərbaycan dövlətçiliyinin, onun dövlət müstəqilliyinin, bu günün və sabahın qarantı demək idi. Heydər Əliyevin qeyd etdiyi kimi “Yeni Azərbaycan Partiyası vətəndaşlarımıza və dünya ictimaiyyətinə sübut etdi ki, o, siyasi fəaliyyət göstərməyə, Azərbaycanın taleyüklü məsələlərini həll etməyə qadir bir partiyadır. Ona görə də Yeni Azərbaycan Partiyası yaşayacaq, inkişaf edəcək, xalqımızı, müstəqil dövlətimizi xoşbəxt gələcəyə aparacaq”. Hər bir partiya üzvü ümummilli lider Heydər Əliyevin ali ideallarını, müqəddəs arzularını gerçəkləşdirmək üçün əlindən gələni etməli, dövlətçiliyimizin inkişafına və tərəqqisinə daim xidmət göstərməlidir.

**Elçin İSMAYIL**

# Müşavirə keçirilmişdir




**Rayonumuzda ”Yanğınların profilaktikasında və yanğın hadisələri zamanı əhaliyə düzgün davranış vərdişlərinin aşılanmasında yerli İcra Hakimiyyəti və özünüidarəetmə orqanlarının rolu” mövzusunda müşavirə keçirilmişdir. Müşavirədə yerli İcra Hakimiyyəti, müvafiq idarə, müəssisə və təşkilatlar, özünüidarəetmə orqanlarının rəhbərləri və KİV nümayəndələri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini, rayon Fövqəladə Hallar Komissiyasının sədri Fərman Nağdalıyev müşavirəni giriş sözü ilə açaraq keçirilən tədbirin əhəmiyyəti barədə ətraflı məlumat vermişdir. Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzinin Dövlət Yanğından Mühafizə İdarəsinin mühəndis-inspektoru İsaxan Hüseynov və rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi Abdal Əzizov mövzu ətrafında geniş məruzə ilə çıxış etmişlər.

Məruzələrdə və Fövqəladə Hallar Nazirliyinin Gəncə Regional Mərkəzinin əməkdaşları Emil Məmmədovun, Elnur İmanovun, rayon Təhsil şöbəsinin müdir müavini Zakir Nəsibovun, Elektrik Şəbəkəsinin baş mühəndisi Hidayət Axundovun, Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin baş meşəbəyi Elsevər Əhmədovun, Şəmkir Qaz İstismar İdarəsinin Qazax rayonu üzrə rəis müavini İlkin Nəsibovun və başqalarının çıxışlarında hər hansı yanğın hadisəsinin qarşısının alınması və profilaktikası məqsədi ilə həyata keçirilən tədbirlər və görülməli olan işlər barədə səsləndirilmiş fikirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Sonda tədbir iştirakçıları ilə yanğın zamanı müxtəlif profilaktik tədbirlərlə bağlı fikir mübadiləsi olmuşdur.

# DƏYİRMİ MASA

**Rayon Məşğulluq Mərkəzi tərəfindən “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası”na dair dəyirmi masa keçirilmişdir.**

Mədəniyyət evinin akt zalında keçirilən dəyirmi masada RİHB Aparatının məsul şəxsləri, idarə, müəssisə və təşkilat nümayəndələri iştirak etmişdir.

Rayon Məşğulluq Mərkəzinin direktoru Elçin Nəsibov tədbiri giriş sözü ilə açaraq tədbirin əhəmiyyətindən, maarifləndirmə xarakterli olmasından danışmış, Məşğulluq Mərkəzi tərəfindən göstərilən xidmətlər, vətəndaşlara münasib iş yerlərinin axtarılmasında köməklik göstərilməsi və digər məsələlər barədə məlumat vermişdir.

Mərkəzin mütəxəssisi Fatma Kəngərli geniş məruzə ilə çıxış edərək kvota və imtiyazlı təbəqələr, kvotanın necə müəyyən edilməsi, kimlərə şamil olunması barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Mərkəzin baş məsləhətçi-mühasibi Aqil Əmrahov çıxış edərək hesabat formalarının vaxtında və düzgün hazırlanması, eyni zamanda Məşğulluq Mərkəzinə təqdim edilməsi haqqında danışmışdır.

Sonra Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov və başqaları çıxış edərək keçirilən tədbirin əhəmiyyətindən danışmış, idarə və təşkilatlarla əlaqələrin daha yaxından qurulmasında belə maarifləndirici tədbirlərin keçirilməsinin olduqca vacib olduğunu qeyd etmişlər.

Sonda tədbir iştirakçıları ilə maarifləndirmə xarakterli söhbətlər və qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

**Nüşabə HÜSEYNOVA**

9 NOYABR DÖVLƏT BAYRAĞI GÜNÜDÜR

# MÜSTƏQİLLİYİMİZİN MÜQƏDDƏS RƏMZİ

**9 noyabr Dövlət Bayrağı Günü ilə əlaqədar rayonumuzda tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə idarə və müəssisə rəhbərləri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbiri giriş sözü ilə açaraq 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə bütün tədbir iştirakçılarını təbrik etmişdir. Bildirmişdir ki, ilk dəfə Azərbaycan bayrağı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisində qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il noyabrın 17-də “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” sərəncam imzalamışdır. Bu sərəncama əsasən hər il noyabr ayının 9-u Dövlət Bayrağı Günü kimi qeyd edilir. Qeyd etmişdir ki, Azərbaycan bayrağı dünyanın ən uca bayrağıdır və bu, hər bir azərbaycanlıya fəxr və şərəf gətirir.

Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova tədbirdə məruzə ilə çıxış edərək Dövlət Bayrağı Gününün təsis edilməsindən, ölkəmizdə hər il bu bayramın yüksək səviyyədə qeyd edilməsindən danışmışdır.

Sonra rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev, AMİ Qazax filialının baş müəllimi Mübariz Süleymanov, “Avey” Dövlət Tarix Mədəniyyət Qoruğunun direktoru Səadət Əliyeva və başqaları çıxış edərək Dövlət Bayrağı və Dövlət Bayrağı Gününün təsis edilməsi ilə bağlı maraqlı fikirlər söyləmişlər.

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbirə yekun vuraraq tədbir iştirakçılarını bir daha təbrik etmiş, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın daha da qüdrətlənməsi naminə uzun illər səmərəli fəaliyyət arzulamışdır.

**Dönməz Abbasov**

12 NOYABR KONSTİTUSİYA GÜNÜDÜR

# KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR

**Rayon İcra Hakimiyyətində 12 noyabr Konstitusiya Günü münasibətilə keçirilən dəyirmi masada ictimaiyyət nümayəndələri, idarə və müəssisə rəhbərləri iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev giriş sözü ilə çıxış edərək Konstitusiya Günü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Konstitusiyamızın tarixindən danışaraq 1995-ci ildə qəbul olunmuş ali qanunverici sənədin müstəqil Azərbaycanın ilk, ümumilikdə isə respulikanın dördüncü Konstitusiyası olmasını qeyd etmişdir. Bildirmişdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti meydana çıxdı. Bunun üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarılmışdır. 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olunmuşdur. Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya 5 bölmə, 12 fəsil və 158 maddədən ibarətdir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova geniş məruzə ilə çıxış edərək qanunun aliliyindən, xalq və dövlət üçün zəruri olmasından söz açmışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında işçi qrupunun yaradılmasından, ümumxalq səsverməsi yolu ilə Konstitusiya Aktının qəbul olunmasından danışmışdır.

AMİ Qazax filialının direktor müavini, dosent Məmməd Yusifov, Kənd Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Qazax rayon Komitəsinin sədri Fərhad Qocamanov və başqaları çıxış edərək bildirmişlər ki, Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında demokratik quruluşlu dövlətimizin bütün sahələrini əks etdirən mənəvi və humanist ideyalar, dövlət və xalq üçün lazım olan bütün hüquq və azadlıqlar qanun şəklində öz əksini tapmışdır.

Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbirə yekun vuraraq qeyd etmişdir ki, Konstitusiyanın qəbulu cəmiyyət və dövlət həyatında demokratik dəyişikliklərə yol açmış, insan hüquq və azadlıqlarının qorunması üçün əlverişli şərait yaratmaqla həyatın bütün sahələrinin inkişafına təkan vermişdir. Əsas Qanunun qəbul edilməsindən sonra ölkəmizdə bütün sahələri əhatə edən genişmiqyaslı islahatlar nəticəsində böyük inkişaf və tərəqqiyə nail olunmuşdur.

**“GÖYƏZƏN”**

17 NOYABR MİLLİ DİRÇƏLİŞ GÜNÜDÜR

# DİRÇƏLİŞ GÜNÜ QEYD OLUNMUŞDUR

**17 noyabr Milli Dirçəliş Günü ilə əlaqədar rayonumuzda tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisə rəhbərləri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbiri giriş sözü ilə açaraq 17 noyabr Milli Dirçəliş Günü ilə əlaqədar bütün tədbir iştirakçılarını təbrik etmişdir.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova məruzə ilə çıxış edərək qeyd etmişdir ki, 27 il bundan əvvəl 1988-ci il noyabrın 17-də Azərbaycan xalqı ayağa qalxaraq öz haqqını tələb etdi. Həmin gün tarixə meydan hərəkatı kimi daxil olaraq, xalqın özünüdərk prosesinin zirvəsi, milli oyanışın təntənəsi oldu. Xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin vətənə qayıdışı ilə Azərbaycanın milli-siyasi azadlıq hərəkatında yeni bir mərhələ başladı. Ulu öndər Heydər Əliyev Azərbaycan SSRİ Ali Sovetinin 05 fevral 1991-ci il tarixli sessiyasındakı çıxışında SSRİ-dən imtinanın və müstəqillik uğrunda mübarizənin vacibliyini məntiqi şəkildə əsaslandırandan sonra elə həmin sessiyada Azərbaycan SSRİ-nin adı dəyişdirilərək “Azərbaycan Respublikası” adlandırıldı və üçrəngli bayrağımız dövlət bayrağı kimi təsdiq olundu.

Sonra YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov, Suvarma Sistemləri idarəsinin rəisi Abbas Göyüşov, rayon Sığorta Agentliyinin rəisi Mübariz Abdullayev və başqaları çıxış edərək Milli Dirçəliş Günü ilə əlaqədar öz ürək sözlərini söyləmiş, 27 il bundan əvvəl baş verən azadlıq hərəkatından danışmış, respublikamızda, eləcə də rayonumuzda qazanılan uğurlardan söz açmışlar.

**Xuraman Əzimova**

# “Ölkəmizi tanıyaq” tur-aksiya çərçivəsində rayon məktəbliləri Lənkəran-Lerik-Astara rayonlarında olmuşlar






**“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində rayon məktəbliləri 16-19 noyabr tarixlərində Lənkəran-Lerik-Astara rayonlarında olmuşlar. Ekskursiyanın təşkil edilməsində məqsəd Lənkəran, Lerik və Astara rayonlarının tarixi yerləri, qədim və müasir milli memarlıq abidələri ilə yaxından tanış olmaq, müxtəlif məzmunlu musiqili-əyləncəli proqramlarda iştirak etmək olmuşdur.**

Səfərə yola düşməzdən əvvəl Heydər Əliyev parkında təntənəli yolasalma mərasimi keçirilmiş, məktəblilər ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Proqrama uyğun olaraq 4 gün davam edən tur-aksiyada iştirakçıların respublikamızın Cənub bölgəsinə ekskursiyası Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzindən başlamış, ”Palmalife” mehmanxanasında başa çatmışdır.

Ekskursiyanın II günü məktəblilər Lerik rayonuna yola düşmüşlər. Orada Lerik şəhəri ilə, Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi və Uzunömürlülər Muzeyində nümayiş etdirilən eksponatlar və fotoşəkillərlə tanış olmuşlar.

Sonra Astara şəhərinə yola düşmüşlər. Burada da Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi ilə tanış olmuşlar. Bulvara, yolüstü “Yanar bulağ”a ekskursiya etmiş və suyun necə yandığını böyük maraqla izləmişlər. Astara çay fabrikində olan məktəblilər fabrikdəki istehsal prosesi ilə yaxından tanış olmuşlar.

Ekskursiyanın III günü məktəblilər Hirkan Milli Parkı və Xanbulan gölü ilə, çay plantasiyaları və sitrus meyvə bağları ilə tanış olmuşlar.

Lənkəran şəhəri ilə tanış olan zaman məktəblilər Bayraq Meydanına, “Qoşa Qala” qapılarına, Mayaq Binasına, Tarix-Diyarşünaslıq Muzeyinə, Dairəvi Qalaya, Həzi Aslanovun ev muzeyinə baxmış və “Gilan Holdinq”ə məxsus olan Lənkəran Konserv Zavoduna ekskursiya etmişlər.

Beləliklə, IV gün səfər proqramına uyğun olaraq tur-aksiya başa çatmış və məktəblilər Qazax şəhərinə dönmüşlər. Şagirdlər hər gün şam yeməyindən sonra müxtəlif idman yarışlarında, əyləncəli və intellektual oyunlarda iştirak etmişlər.

Tur-aksiya iştirakçıları ekskursiya ilə bağlı təəssüratlarını bölüşərkən söyləmişlər ki, səfər etdiyimiz rayonlardakı qədim və müasir milli arxitekturalı abidələr, təbiət mənzərələri, göz oxşayan çay plantasiyaları, sitrus meyvə bağları bizdə ən xoş hislər və maraq yaratmışdır. Anladıq ki, bizim bütün dünyada əvəzi olmayan, göz oxşayan gözəlliyə malik olan ölkəmiz vardır. Onlar bu bölgəyə gələcəkdə bir daha gəlmək arzusunda olduqlarını bildirmişlər.

Valideynlər və şagirdlər öz çıxışlarında bu cür maarifləndirici tədbirlərin əhəmiyyəti barədə danışmış və belə tur-aksiyanın təşkilinə görə Ölkə Prezidenti İlham Əliyev cənablarına dərin minnətdarlıqlarını bildirmişlər.

# HƏRBİ HİSSƏDƏ TƏDBİR KEÇİRİLMİŞDİR

**Rayonumuzda “N” saylı Hərbi Hissənin yaradılmasının 23 illik yubileyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin nümayəndələri, mədəniyyət işçiləri, KİV nümayəndələri və qonaqlar iştirak etmişdir.**

Tədbir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin hərbi hissədə ucaldılmış büstü önünə gül-çiçək dəstələri qoymuş, ümummilli liderin əziz xatirəsini böyük ehtiramla yad etmişlər. Sonra hərbi orkestrin ifasında “Marş” çalınmışdır.

“N” saylı Hərbi Hissənin komandiri, polkovnik İdris Məhərrəmov tədbiri giriş sözü ilə açaraq yubiley münasibətilə əsgər və zabitləri təbrik etmiş, Azərbaycanın müstəqilliyinin qorunması uğrunda bundan sonrakı fəaliyyətlərində daha əzmli olmağı və mətin dayanmağı arzulamışdır. Qeyd etmişdir ki, güclü potensiala malik Azərbaycan Respublikasının Silahlı Qüvvələri çox yaxın müddətdə Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində işğal altında olan 20% torpağımızı erməni mənfurlarından azad edəcək, zəfərlərimizə yeni qələbələr əlavə edəcəkdir.



Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbirdə çıxış edərək bütün əsgər və zabit heyətini bayram münasibətilə təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır. F.Nağdalıyev ordu quruculuğundan danışaraq bu gün Milli Ordumuzun müstəqil Azərbaycan dövlətinin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və dövlətimizin ərazi bütövlüyünün tam təminatçısı olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun uğurlu davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu sahəsində apardıqları islahatlar nəticəsində Qafqazda ən güclü müdafiə potensialı olan böyük hərbi bazaya malik bir ordu formalaşmışdır.

Sonra hərbi xidmətdə fərqlənən bir qrup hərbiçiyə Fəxri Fərman və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Daha sonra tədbir Mədəniyyət və Turizm şöbəsinin hazırladığı xüsusi konsert proqramı ilə davam etmişdir. Aşıqlardan Camoy Qurbanov, gənc aşıqlardan Əsgər Qazaxlı, Elvin Səfərovun səsləndirdikləri saz havaları və söylədikləri şeirlər böyük alqışlarla qarşılanmışdır.

Həmçinin gənc meyxanaçılardan Əmir Qazaxlı, Mədət Tənha və Orxan Dənizin “Hərbi hissədə”adlı meyxanası tədbirə daha bir rəng qatmışdır.

Müğənnilərdən Niyazi Yusifov və Tural Bayramovun ifasında səslənən bir-birindən şən, şux mahnılar tədbir iştirakçılarında əsl bayram əhval-ruhiyyəsi yaratmışdır.

**Məfrubə MEHDİYEVA,**
**Mədəniyyət və Turizm şöbəsinin metodisti**

# “Uşaq Hüquqları Aylığı”

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli Sərəncamı ilə 2009-cu ilin ölkəmizdə “Uşaq ili” elan olunması aidiyyatı qurumlar qarşısında müvafiq vəzifələr qoymuş və uşaqların inkişafı üçün yeni fəaliyyət istiqamətləri müəyyənləşdirmişdir. Bu baxımdan hər il 20 oktyabr-20 noyabr tarixlərində Müvəkkilin təşəbbüsü ilə ənənəvi olaraq “Uşaq hüquqları aylığı” elan olunur, dövlət qurumları, yerli və mərkəzi icra hakimiyyəti orqanları, həmçinin QHT və KİV-lər, icmalar tərəfindən müxtəlif tədbirlər həyata keçirilir.**

Respublikanın hər yerində olduğu kimi, rayonumuzda da silsilə tədbirlərin həyata keçirilməsi ənənə halını almışdır. Bu il də Ombudsmanın 1/12990-15 nömrəli 05 okytabr 2015-ci il tarixli məktubuna əsasən rayon İcra Hakmiyyətinin və Təhsil şöbəsinin təşkilatçılığı ilə “Uşaq hüquqları aylığı” ilə əlaqədar tədbir keçirilmişdir.

Tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur. Sonra tədbirə Heydər Əliyev Mərkəzində strat verilmişdir.

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, “Uşaq hüquqları aylığı”nın keçirilməsində əsas məqsəd uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin və effektiv müdafiəsinin yaxşılaşdırılması olmuşdur. Qeyd etmişdir ki, bununla əlaqədar Qazax rayon İcra Hakimiyyəti tərəfindən müvafiq işlər görülmüş, aidiyyatı qurumlara tövsiyə və tapşırıqlar verilmişdir. Rayon İcra Hakimiyyəti Başçısı Aparatı yanında fəaliyyət göstərən Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın üzvləri, rayon Təhsil şöbəsinin, Gənclər və İdman İdarəsinin işçiləri rayonun ümumtəhsil məktəblərində olmuş, uşaqların hüquqları ilə əlaqədar şagirdlərlə söhbətlər aparmışlar. Görüşlərdə uşaq hüquqları barədə azyaşlıları maraqlandıran məsələlər haqqında suallar cavablandırılmış, bu barədə onlara ətraflı məlumatlar verilmişdir. Qazax şəhər 1, 2, 4, 5 N-li tam orta məktəblərdə, məktəb-liseydə görüşlər daha maraqlı keçmişdir. Belə ki, həmin məktəblərdə ölkəmizdə uşaqlar üçün yaradılmış şəraitdən, uşaqların iştirakı ilə keçirilmiş tədbirlərdən bəhs edən foto-stendlər düzəldilmiş və şagirdlərin iştirakı ilə vaxtaşırı maraqlı görüşlər və tədbirlər təşkil edilmişdir. Hər dəfə keçirilən görüşlərdə uşaqlara onların hüquqlarından, uşaq hüquqları konvensiyasından danışılmışdır. Uşaq hüquqları prinsipləri və müddəaları barədə valideynlərə və uşaqlara məlumatlar verilmişdir. Konvensiyada əks olunan bir çox sahələr üzrə olan maddələr uşaqlara ətraflı şəkildə izah edilmişdir.

İcra Aparatında hüquq şöbəsinin məsləhətçisi Ülviyyə Orucova, Təhsil şöbəsinin aparıcı-məsləhətçisi Rasim Carçıyev, rayon Polis şöbəsində yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun inspektoru, polis mayoru Sarif Qurbanov və başqaları çıxış edərək uşaqlara Konvensiyada əks olunan bir çox müddəalar: uşaqların fiziki, əqli və mənəvi inkişafı üçün lazımi həyat səviyyəsinin yaradılması haqda, hər bir uşağın təhsil almaq, istirahət etmək, zərər vura biləcək hər bir hadisədən müdafiə olunmaq, eləcə də digər hüquqları özündə əks etdirən maddələr barədə ətraflı məlumat vermişlər.

Həmçinin valideynlər, müəllimlər və şagirdlər çıxış edərək “Uşaq Hüquqları Aylığı” ilə bağlı keçirilən tədbirlərdən razı qaldıqlarını bildirmişlər.

**Nüşabə HÜSEYNOVA**

# “Cəbhə bölgələrində yaşayan gənclərə təhlükəsizlik qaydalarının təbliği”

**Rayonumuzda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə “Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyi tərəfindən “Cəbhə bölgələrində yaşayan gənclərə təhlükəsizlik qaydalarının təbliği” layihəsi çərçivəsində tədbir keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova toplantını giriş sözü ilə açaraq keçirilən tədbirin əhəmiyyəti barədə yığıncaq iştirakçılarına geniş məlumat vermişdir.

Tədbirdə “Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri Elnur Həsənli məruzə ilə çıxış etmişdir. Məruzə ətrafında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qazax rayon şöbəsinin rəisi, polkovnik-leytenant Vüqar Mirzəyev, Azərbaycan Müəllimlər İnstitutu Qazax filialının direktor müavini, dosent Məmməd Yusifov və başqaları çıxış etmişlər.

Tədbirin sonunda gəncləri maraqlandıran suallara cavab verilmişdir.

# DƏM QAZINDAN EHTİYATLI OLUN

**Havaların soyuması ölkə əhalisinin qaza olan tələbatını xeyli artırmışdır. Yaşayış məntəqələrində, eləcə də müəssisə və obyektlərdə istiliyin təmin edilməsi məqsədilə insanlar qeyri standart və müasir dövrün tələblərinə cavab verməyən qızdırıcılardan istifadə edirlər ki, bu da bir çox hallarda xoşagəlməz hadisələrin baş verməsinə səbəb olur. Əhali qaz sobalarından istifadə zamanı olduqca diqqətli olmalı və təhlükəsizlik qaydalarına riayət etməlidir. Əks təqdirdə dəm qazından zəhərlənmə halları müşahidə olunar, bu da faciəli sonluqla nəticələnə bilər.**

Soyuqların düşməsi ilə əlaqədar olaraq dəm qazından zəhərlənmə halları artmışdır. Bu səbəbdən Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti, eləcə də aidiyyəti qurumlar tərəfindən mütəmadi olaraq əhalinin təhlükəsizliyinin təmin edilməsi və bu sahədə nəzarətin gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Televiziyada, mətbuatda, reklam işlərində bununla bağlı xəbərdaredici və insanların təhlükəsizliyinin təmin edilməsi məqsədilə qaz sobaları və istilik sistemləri ilə davranış qaydaları haqqında məlumatlar mütəmadi olaraq əhalinin nəzərinə çatdırılır. Bu sahədə məqsədyönlü işlərin aparılmasına baxmayaraq respublika ərazisində dəm qazından zəhərlənmə hallarının baş verməsi davam etməkdədir. Bunun da əsas səbəbi qaz cihazlarının quraşdırılması və istismarı zamanı vətəndaşlar tərəfindən texniki və yanğın təhlükəsizliyi qaydalarına əməl etməmələridir.

Əhali tərəfindən kortəbii üsulla tüstü borularının yerləşdirilməsi, yaşayış binalarının damında havaçəkən kanalların üzərində qeyri-qanuni su çənlərinin və



peyk antenalarının quraşdırması dəm qazının yaranması üçün şərait yaradır. Bununla yanaşı bəzi sakinlər qaz borularının yerinə rezin borulardan istifadə edir və sobaların daha yaxşı yanması üçün sobada quraşdırılan avtomatik təhlükəsizlik qurğularını çıxardırlar. Bu da nəticədə bədbəxt hadisələrin baş verməsinə səbəb olur. Belə hadisələrin baş verməməsi üçün hər bir vətəndaş təhlükəsizlik qaydalarını bilməli və onlara ciddi əməl etməlidir.

İstənilən satış mərkəzindən əldə edilən məişət cihazının müvafiq sənədləri (texniki pasportu, uyğunluq sertifikatı və s.) olmalı, alıcı isə ondan istifadə qaydalarını bilməlidir. Qaz cihazlarını istər obyektdə, istərsə də evdə quraşdırdıqda mütləq qaydada bu sahə üzrə ixtisaslaşmış mütəxəssislərə müraciət olunmalıdır. Mütəxəssis sobanı quraşdırdıqda tüstü borusunun hündürlüyü və hansı istiqamətdə bayıra çıxacağı müəyyən edilməlidir. Quraşdırılan qızdırıcı standarta uyğun olmalı, onun təhlükəsizlik qurğuları daima saz vəziyyətdə olmalı və istifadəsi zamanı müəyyən olunmuş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir. Qaz sobalarının borusu yalnız dəmirdən hazırlanmalı və binanın dam örtüyünün xarici səthindən azı 70 sm. hündürlükdə olmalıdır. Yaxşı olar ki, borunun bayırdan çıxan hissəsi düz yox, dirsək formasında olsun. Çünki bu halda boruda sorma prosesi daha rahat gedir.

Dəm qazı orqanizmə əsasən nəfəsalma zamanı ağ ciyərlər vasitəsi ilə daxil olur. Orqanizmə daxil olmuş dəm qazı oksigenə nisbətən hemoqlobinlə daha möhkəm birləşmə əmələ gətirərək oksigenin üzv və toxumalara daşınmasının qarşısını alır. Nəticədə üzv və toxumalarda oksigen aclığı baş verir.



Güclü zəhərləyici xassəyə malik olan dəm qazı üzvi maddələrin, o cümlədən təbii qaz, neft məhsullarının və odun yanacağının natamam yanması nəticəsində əmələ gəlir, iysiz və rəngsiz olduğundan isə insan onu hiss etmir. Qeyd edək ki, yalnız qapalı şəraitdə dəm qazı yaranır və təhlükəli hesab olunur.

Dəm qazı ilə zəhərlənən insanda baş ağrıları, baş gicəllənmələri, ürək bulanma, qusma, qulaq batması, qəfil əzələ boşalması, şüurun dumanlanması və digər əlamətlər baş verir. Yüksək qatılıqlı dəm qazının təsiri nəticəsində isə kəskin zəhərlənmələr müşahidə olunur ki, bunlar da huşun itirilməsi, xüsusi ağır şəraitdə ölümlə nəticələnən uzun müddətli koma vəziyyəti ilə xarakterizə olunur. Bu zaman göz bəbəklərinin genişlənməsi və işığa zəif reaksiya vermə, qıcolma, əzələlərin kəskin gərginliyi, tənəffüsün və ürək döyüntülərinin sürətlənməsi müşahidə edilir.

İnsanlar yüksək konsentrasiyalı dəm qazı olan mühitdə çox qaldıqda zəhərlənmə bir o qədər güclü olur. Dəm qazından boğulma halları təkcə qapalı şəraitdə olan yerlərdə (otaqlarda) deyil, eyni zamanda avtomobillərdə də baş verməsi mümkündür. Belə ki, avtomobilin qarajda 10 dəqiqə işləməsi şəraitində nəfəs alan adamın qanında karbon-monooksidin miqdarı ölümcül həddə çata bilər.

Dəm qazı ilə zəhərlənməyə: vanna və hamam otaqlarının qapısında nəfəsliyin və normal ventilyasiya sisteminin olmaması, qızdırıcının qapağının açıq qalması, sobanın və tüstü çəkən bacanın nasaz vəziyyətdə olması, zirzəmidə, qarajda, evlərdə və qapalı yerlərdə generatorun işlək vəziyyətdə olması və s. amillər səbəb olur. Bunun qarşısını almaq üçün vətəndaşlar ilk öncə müvafiq qurumlar tərəfindən onlara edilən xəbərdarlıqlara əməl etməli, özlərinin və yaxınlarının təhlükəsizliyini təmin etmək məqsədilə qabaqlayıcı tədbirlər görməlidirlər.

Binaların damındakı bacalar yağışdan və qardan sonra mütləq təmizlənməli, qış mövsümü başlanmazdan əvvəl mütəxəssislər tərəfindən sobalara baxış keçirilməli, tüstü bacalarının sazlığı və işə yararlılığı yoxlanılmalıdır. Nasaz sobalardan və tüstü borularından istifadə etmək olmaz.



Otaqda qaz iyi hiss etdikdə dərhal qazın verilməsi dayandırılmalı, otağın pəncərələrini açaraq havasını dəyişdirməli və qəza-təmir xidmətinə xəbər verilməlidir. Nasazlıq aradan qaldırılana qədər otaqda siqaret çəkmək, kibritdən, açıq alovdan, elektrik cihazlarından istifadə etmək olmaz. Dəm qazı ilə zəhərlənən insana həkim gələnə kimi ətrafdakılar ilk tibbi yardım göstərməlidir:

- ilk öncə zərərçəkəni dərhal təmiz havaya (ilin isti vaxtında küçəyə, soyuq mövsümdə isə havalandırılan otağa) çıxarmalı və kürəyi üstə uzatmaq lazımdır;
- zərərçəkənin bədəni ovuşdurulmalı, başına və sinəsinə soyuq kompres qoyulmalıdır;
- zərərçəkmişin huşu özündədirsə ona çay içirtmək məsləhətdir, əgər huşunu artıq itiribsə, onun burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırılır;
- zərərçəkmişin tənəffüsü dayanıbsa ona mütləq süni nəfəs vermək və təcili tibbi yardım çağırmaq lazımdır.

Mənzillərdə, idarə və müəssisələrdə dəm qazından qorunmağın ən asan yolu dəm qazı xəbərdaredici cihazlardan və avtonom detektorlardan istifadə etməkdir. Əgər dəm qazının konsentrasiyası buraxıla bilən hədd dozasını keçmişdirsə, bu halda elektrokimyəvi cihazlar vasitəsi ilə təyin olunaraq səs və işıq siqnalı xəbərdarlıq edir. Dəm qazı xəbərdaredici cihazlar döşəmədən 1,5 metr hündürlükdə, tavandan isə 15-20 santimetr aşağıda quraşdırılır.

Əhali arasında dəm qazından zəhərlənmə hadisələrinin qarşısını almaq üçün ilk növbədə vətəndaşlar qaz cihazlarından istifadədə müvafiq norma və qaydalara riayət etməli, soba boruları və bacalar mütəmadi olaraq yoxlanılmalı, qaz cihazları və istilik sistemlərinin sazlığına daim ciddi nəzarət edilməli, otağın havası teztez dəyişdirilməlidir.



Fövqəladə Hallar Nazirliyi gələcəkdə bu sahədə baş verə biləcək bədbəxt hadisələrin qarşısını almaq üçün vətəndaşları diqqətli olmağa, səhlənkarlığa yol verməməyə, mütəxəssislərin məsləhətlərinə riayət etməyə, qaz çihazlarından və qızdırıcılardan istifadə zamanı təhlükəsizlik, texniki norma və qaydalara əməl etməyə çağırır. Unutmaq olmaz ki, yalnız təhlükəsizlik qaydalarına əməl etməklə dəm qazı ilə zəhərlənmə hallarının qarşısını almaq mümkündür.

**Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

# 2015-ci ilin üçüncü rübündə Qazax rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

**2015-ci ilin üçüncü rübündə ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7% artaraq 40,7 milyard manata çatmışdır. Bu dövrdə ÜDM-in 34,2% sənayedə, 13,5% tikintidə, 10,1% ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 5,7% nəqliyyat və anbar təsərrüfatında, 6,5% kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 2,6% turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 2% informasiya və rabitə xidmətlərində, 17,9% isə sosial və digər xidmətlər sahəsində istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,5 faizini təşkil edir. ÜDM istehsalı qeyri-neft sektorunda 6,4% artmış, nef-qaz sektorunda isə 0,1% azalmışdır.**

2015-ci ilin üçüncü rübündə əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8% artaraq 30,12 milyard manata çatmış, onun hər nəfərinə düşən həcmi orta hesabla 3200 manat və ya ayda 355 manat təşkil etmişdir. Respublika iqtisadiyyatının bütün sahələrində irəliləyiş olduğu kimi rayonun iqtisadiyyatının əsas sahələrində irəliləyişlər mövcud olmuşdur. Rayonun iqtisadiyyatının əsas göstəriciləri cədvəldə qeyd olunduğu kimidir:

min manatla

| Göstəricinin adı | 2015-ci ilin doqquz ayı | 2015-ci ilin doqquz ayı 2014-cü ilin doqquz ayına nisbətən %-lə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 131069.6 | 128.7 |
| Sənaye məhsulunun (islərin xidmətlərin) ümumi həcmi | 10348.4 | 110.8 |
| Əsas kapitala yönəldilən investisiyalar | 31023.2 | 3 dəfə çox |
| Kənd təsərrüfatının ümumi məhsulu | 47582.2 | 104.2 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 1142 | 105.0 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min. sərnişin | 10762 | 106.1 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 811 | 103.4 |
| Pərakəndə əmtəə dövriyyəsi | 106878.9 | 107.9 |
| Əhaliyyə göstərilən pullu xidmətlər | 19562.4 | 103.4 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 258.5 | 101.3 |

Cədvəldən göründüyü kimi ümumi məhsul buraxılışı keçən ilin eyni dövrü ilə müqayisədə 28,7% artmışdır. Doqquz ay ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 258.5 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 1,3% çoxdur.

## ƏHALİ

01 oktyabr 2015-ci il tarixinə rayon əhalisinin sayı 94300 nəfər olmuşdur. Rayon əhalisinin 21350 nəfəri şəhərdə, 72950 nəfəri isə kənd yaşayış məntəqələrində yaşayır. 9 ay ərzində rayonda 1134 nəfər uşaq doğulmuş, 579 nəfər ölüm qeydə alınmışdır. Təbii artım 555 nəfər olmuşdur. Rayona gələnlərin sayı 179 nəfər, rayondan gedənlər isə olmamışdır. Rüb ərzində əhalinin miqrasiya artımı 179 nəfər olmuşdur. 472 nigah qeydə alınmışdır. Boşanmaların sayı 73 olmuşdur.

## KƏND TƏSƏRRÜFATI

Rayon iqtisadiyyatının əsas sahələrindən biri də kənd təsərrüfatıdır. Rayonun iqtisadiyyatında tərəvəzçilik, taxılçılıq, heyvandarlıq aparıcı rol oynayır. Kənd təsərrüfatının başqa sahələri də, yəni meyvəçilik, kartofçuluq və bostan məhsulları istehsalı da inkişaf etdirilir. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ərazisinin 66,9 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 15568 ailə 24268 hektar torpaq payına sahib olmuşdur. Orta hesabla hər ailəyə 1,6 hektar torpaq sahəsi verilmişdir. Rayonda uğurla aparılan aqrar islahatlar nəticəsində 19 sovxoz və bir kökəltmə məntəqəsi ləğv edilmiş, onlara məxsus torpaq sahəsi və əmlak əhaliyə paylanmışdır. Eyni zamanda ötən dövr ərzində müxtəlif təşkilati hüquqi formalı 119 yeni kənd təsərrüfatı müəssisəsi yaradılmışdır.

İqtisadiyyatın bazar münasibətlərinə keçdiyi bir şəraitdə sənayeni xammalla, əhalini isə ərzaqla təmin etmək üçün ölkəmizdə kənd təsərrüfatı sahəsini daha da inkişaf etdirmək ən əhəmiyyətli və vacib şərtlərdən biridir. Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilikdir.

Qazax rayonu üzrə 2015-ci ilin məhsulu üçün 13485 hektar sahədə payızlıq və yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilə nisbətən 1410 hektar az olmuşdur. Əkilmiş sahənin 5559 hektarı payızlıq taxıl olmuşdur. Bu sahənin 4165 hektarı buğda, 1394 hektarı arpa sahəsidir. Keçən ilə nisbətən 1956 hektar payızlıq buğda, 785 hektar payızlıq arpa sahəsi az səpilmişdir. 2015-ci ilin məhsulu üçün 516 hektar sahədə yazlıq dənlilər səpilmişdir ki, bunun da 335 hektarı arpa, 161 hektarı vələmir, 20 hektarı dənli paxlalılardır.

2015-ci ilin məhsulu üçün 6075 hektar (qarğıdalıdan başqa) dənlilər və dənli paxlalılar biçiləçək sahə vardır. Bu da keçən ilə nisbətən 1805 hektar azdır. 2382 hektar sahədə yazlıq bitkilər əkilmişdir. Bunun 295 hektarı qarğıdalı, 335 hektarı arpa, 161 hektar vələmir, 20 hektarı dənli paxlalılar, 38 hektarı texniki bitkilər, 327 hektarı kartof, 489 hektarı tərəvəz, 30 hektarı bostan, 687 hektarı isə cari il yoncasıdır. 2015-ci il üçün əkinin 2014-cü illə müqayisəli cədvəli aşağıdakı kimidir:

| Sıra № | Bitkinin adı | Ölçü vahidi | 01 iyun 2015-ci il | 01 iyun 2014-cü il | Fərq + - |
|---|---|---|---|---|---|
| 1 | Dənli və dənli paxlalılar | hek | 6075 | 7880 | -1805 |
| 2 | Qarğıdalı | hek | 295 | 364 | -69 |
| 3 | Yonca | hek | 6221 | 5783 | +438 |
| 4 | Texniki bitkilər | hek | 48 | 76 | -28 |
| 5 | Kartof | hek | 327 | 303 | +24 |
| 6 | Tərəvəz | hek | 489 | 465 | +24 |
| 7 | Bostan | hek | 30 | 24 | +6 |
| 8 | Cəmi | hek | 13485 | 14895 | -1410 |

Keçən illə müqayisədə yazlıq bitkilər 488 hektar və ya 25,8 faiz artmışdır. Əkinlərin hamısı əhali təsərrüfatlarında əkilmişdir. Əhali təsərrüfatlarında cari ildə 687 hektar sahədə yonca əkilmişdir. Bu da keçən illə müqayisədə 108 hektar çox olmuşdur. Keçən illə müqayisədə 24 hektar tərəvəz çox səpilmişdir. Tərəvəzin 16 hektarı kələm, 150 hektarı xiyar, 246 hektarı pomidor, 2 hektarı xörək çuğundurudur. 6 hektarı xörək üçün yerkökü, 13 hektarı baş soğan, 2 hektarı sarımsaq, 54 isə sair tərəvəzlər təşkil etmişdir.

01 oktyabr 2015-ci il tarixinə rayonda 6040 hektar dənli sahəsindən18217 ton taxıl istehsal olunmuşdur. 1 hektardan orta məhsuldarlıq 30,2 sentner olmuşdur. Taxılın məhsuldarlığı keçən ildəkindən 4,6 sentner çox olmuşdur. 469 hektar tərəvəz sahəsindən 11030 ton tərəvəz toplanmışdır. Tərəvəzin məhsuldarlığı keçən ildəkindən 0,9 sentner çox olmuşdur. 327 hektar kartof sahəsindən 4020 hektar məhsul istehsal olunmuşdur. Hektardan orta məhsuldarlıq 122,9 sentner olmuşdur ki, bu da keçən ilkindən 8,8 sentner çoxdur. Meyvə bağlarından 7397 ton meyvə yığılmışdır. Üzüm istehsalı 2190 ton olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 5 ton artıq olmuşdur. Rayonda məhsul toplanışı davam edir.

2015-ci ilin doqquz ayında heyvandarlıq məhsulları istehsalı aşağıdakı cədvəldə göründüyü kimidir:

| S/N | Məhsulun adı | Ölçü vahidi | 2015-ci ilın Yanvar-sentyabr ayında | 2014-cü ilin yanvar-sentyabr ayında | Fərq +- |
|---|---|---|---|---|---|
| 1 | Ət (diri çəkidə) | ton | 4161 | 3946 | +215 |
| 2 | Süd | ton | 22931 | 22221 | +710 |
| 3 | Yumurta | min ədəd | 9012 | 8771 | +241 |
| 4 | Yun | ton | 271 | 271 | - |

Cədvəldən göründüyü kimi doqquz ay ərzində keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 215 ton, süd istehsalı 710 ton, yumurta istehsalı 241 min ədəd artmışdır. Bu artım əsasən əhali təsərrüfatlarının hesabına olmuşdur. Mal-qaranın baş sayı aşağıdakı cədvəldəki kimidir:

| | ölçü vahidi | 01.01.2002 | 01.01.2013 | 01.07.2015 | 01.10.2014 | 01.10.2015 01.10.2014 Cü ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara | Baş | 29938 | 30019 | 30206 | 30099 | 100 |
| O cüm: inək və camışlar | Baş | 15497 | 15611 | 16006 | 15969 | 101.7 |
| Qoyun və keçilər | Baş | 152614 | 144928 | 141772 | 143412 | 100.2 |

## SƏNAYE

2015-ci ilin 9 ayı ərzində rayonun sənaye təşkilatlarında 10348.4 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründə olduğundan 10,8 faiz çox sənaye məhsulu istehsal edilmiş və ya xidmətlər göstərilmişdir. İstehsal edilmiş məhsulun 5124.7 min manatı dövlət sektoruna, 5223.7 min manatı isə qeyri-dövlət sektoruna aiddir. Sənaye təşkilatlarında məhsul istehsalı dövlət sektorunda artmış, qeyri-dövlət müəssisələrində isə keçən ilin müvafiq dövrünə nisbətən azalmışdır. Məhsulun 325 min manatlığı fiziki şəxslər tərəfindən istehsal olunmuşdur.

İstehsal olunmuş məhsulun 2825.4 min manatı B seksiyasına, mədənçıxarma sənayesinə aiddir. Bu ümumi məhsul istehsalının 27,3%-ni təşkil edir. Rayonda 2015-ci ilin 9 ayında iki gil istehsalı müəssisəsi fəaliyyət göstərmişdir və 2599.7 min manatlıq məhsul istehsal olunmuşdur. Tikinti daşı istehsal edən müəssisələr tərəfindən görülən işin həcmi 225.7 min manat olmuşdur. Bu seksiyada fiziki şəxslər tərəfindən görülən işin həcmi 75 min manat olmuşdur. Bu seksiyada fiziki şəxslər tikinti daşı istehsal etmişlər. C seksiyasına, emal sənayesinə aid olan müəssisələr tərəfindən görülən işin həcmi 2388.5 min manat olmuşdur. Bu ümumi məhsul istehsalının 23,1%-ni təşkil edir. 2015-ci ilin 9 ayı ərzində 165.3 min manatlıq dondurulmuş meyvə və tərəvəz istehsal olunmuşdur. 2015-ci ilin 9 ayı ərzində 8.9 min manatlıq xalça, 1754.6 min manatlıq mebel istehsal olunmuşdur. Bu seksiyada çörək istehsalının həcmi 282.1 min manat, o cümlədən fiziki şəxslər tərəfindən görülən işin həcmi 250 min manat olmuşdur. Görülən işin həcminin 4766.9 min manatı D seksiyasına aiddir. Bu ümumi məhsul istehsalının 46,1%-ni təşkil edir. Ümumi məbləğin 976.2 min manatı elektrik enerjisinin satışından, 3776.6 min manatı isə qaz satışından əldə olunan gəlirdi. E seksiyasına daxil olan müəssisələr tərəfindən görülən işin həcmi 367.6 min manat olmuşdur. Bu məhsul istehsalının 3,5% -ni təşkil edir. Bu məbləğin 243.2 min manatı su satışından əldə olunan gəlirdi. Bu seksiyada 124.4 min manatlıq kommunal xidmətlər göstərilmişdir. İstehsal olunmuş məhsulun hamısı rayonda fəaliyyət göstərən sənaye müəssisələrinin öz istehsalıdır. 2015-ci ilin oktyabr ayının 1-i tarixinə rayonda 1302.2 min manatlıq sənaye məhsulu qalığı olmuşdur. Bu qalığın 896.0 min manatı gil, 155.0 min manatı isə təmiz spirt, 251.2 min manatı isə konservləşdirilmiş meyvə, tərəvəz olmuşdur. 2015-ci ilin doqquz ayında istehsal olunmuş sənaye məhsulları natura ifadəsi ilə aşağıdakı kimidir:

| Məhsulun adı | Ölçü vahidi | 2015-ci ilin 9 ayı ərzində istehsal | Göndərilmişdir | Məhsul qalığı | 2014-cü ilin 9 ayı ərzində istehsal | 2015-ci ilin 9 ayı 2014-cü ilin 9 ayına nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| Tikinti daşı | Ton | 16720 | 16720 | - | 15078 | 110.9% |
| Gil (əmtəəlik) | Ton | 39233.9 | 35166.7 | 59661 | 67829 | 57.8% |
| Qum | Ton | - | - | - | 2105 | - |
| Şərab | Mdal | 0.2 | 0.2 | - | 2.6 | 7.6% |
| Təmiz spirt | Mdal | - | - | 10.7 | - | - |
| Çörək | ton | 480 | 480 | - | 390 | 123.1% |
| Dondurulmuş meyvə | ton | 121.4 | 149.1 | 206.8 | 292.3 | 41.5% |
| Xalça | Kvm | 69 | 69 | - | 90 | 76.7% |
| Yumşaq mebel | ədəd | 989 | 989 | - | - | - |
| Yataq mebel dəsti | ədəd | 1390 | 1390 | - | 660 | 210.6% |
| Qonaq otağı üçün mebel | ədəd | 752 | 752 | - | 685 | 109.8% |
| Qazlı su | Mindal | 82.5 | 82.5 | - | 100 | 82.5% |
| Elektrik enerjisi | Minkv | 73.4 | 60.7 | - | 68.7 | 106.8% |
| Qaz | Mln kub | 80.2 | 76.3 | - | 37.8 | 105.1% |
| Su | Minkub | 937.9 | 791.5 | - | 955.9 | 118.5% |

2015-ci ilin 9 ayı rayonda müəssisələr tərəfindən 16720 ton tikinti daşı istehsal olunmuş və istehsal olunmuş məhsulun hamısı satılmışdır. Gil istehsalı həmin dövrdə 35166.7 ton olmuşdur. 9 ay ərzində 35166.7 ton gil satılmış və 2015-ci ilin oktyabr ayının 1-i tarixinə 67829 ton məhsul qalığı olmuşdur. 2015-ci ilin 9 ayı ərzində 480 ton çörək, 82,5 min dekalitr qazlı su istehsal olunmuşdur. 2015-ci ilin oktyabr ayının 1-ə məhsul qalığı 10684 dekalitr təmiz spirt olmuşdur. 2015-ci ilin 9 ayı ərzində 69 kvadrat metr xalça istehsal olunub satılmışdır. Həmin dövrdə mebel istehsalı ilə məşğul olan müəssisələr tərəfindən 1390 ədəd yataq mebel dəsti, 752 ədəd qonaq otağı üçün mebel, 989 ədəd yumşaq mebel dəsti istehsal olunub satılmışdır. 2015-ci ilin 9 ayı ərzində rayonda 121,4 ton konservləşmiş meyvə, tərəvəz istehsal olnmuş, 149.1 ton məhsul satılmış, dövrün axırına 206.8 ton məhsul qalığı olmuşdur. 9 ay ərzində rayonda 60700 min kilovat elektirik enerjisi, 76300 min kub qaz bölüşdürülmüşdür. Rayonda 2015-ci ilin 9 ayı ərzində 791.5 min kub su istehsal olunub satılmışdır. 2015-ci ilin 9 ayı ərzində rayonun sənaye müəssisələrində 821 nəfər işçi çalışmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 93,4 faiz təşkil edir. Işçilərin 354 nəfəri dövlət sektorunda, 467 nəfəri isə qeyri-dövlət sektorunda çalışır. Sənaye müəssisələrində orta aylıq əməkhaqqı 347.8 manat olmuşdur. Orta aylıq əməkhaqqı dövlət sektorunda isə 361.8 manat, qeyri-dövlət sektorunda isə 335.4 manat olmuşdur. Rayonda yerləşən sənaye müəssisələrinə 9 ay ərzində 143 nəfər işçi qəbul edilmiş, 264 nəfər işdən öz xahişi ilə azad edilmişdir.

## ƏSASLI TİKİNTİ

2015-ci ilin yanvar-sentyabr aylarında rayonda istifadəyə verilmiş əsas fondların dəyəri 1231.6 min manat, əsas kapitala yönəldilmiş investisiyaların həcmi 31023.2 min manat, tikinti quraşdırma işlərinin həcmi 30585 min manat təşkil etmişdir. 9 ay ərzində 88 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir ki, bunun da 65-i kənd yerindədir. Yaşayış evlərinin ümumi sahəsi 15023 kv/m, yaşayış sahəsi 6460 kv/m-dir. İstifadəyə verilmiş yaşayış evlərinin dəyəri 1127 min manatdır. 9 ay ərzində 16 mənzil özəlləşdirilmişdir. Özəlləşdirilən mənzillərin ümumi sahəsi 1065.5 kv.metrdir. 2015-ci ilin doqquz ayında tikinti müəssisələri öz gücləri ilə 2375.5 min manatlıq iş görmüşdür ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 132,4% təşkil edir.

## İSTEHLAK BAZARI

Doqquz ay ərzində Qazax rayonunda 3 iri, 61 kiçik ticarət, xidmət müəssisəsi, 200 ticarət yerinə malik kənd təsərrüfatı məhsulları bazarı və hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan 2305 fiziki şəxs ticarət fəaliyyəti göstərmişdir. Doqquz ay ərzində rayonun istehlak bazarında əhaliyə 126441.3 min manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksi 107,9% olmuşdur.Əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 103,4 % olmuşdur. Doqquz ay ərzində Qazax rayonunda pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 106878.9 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin 10,5% hüquqi şəxslərin 59,2% kənd təsərrüfatı bazarının, əşya və qarışıq mallar yarmarkasının, 30,3% hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən yaranmışdır. Doqquz ərzində rayon əhalisinin hər bir nəfəri tərəfindən ticarət şəbəkələrindən 1135 manatlıq istehlak malları alınmışdır. Hər bir sakinə 207.9 manatlıq pullu xidmət göstərilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən rayon əhalisinə 1690 min manatlıq iaşə xidmətləri göstərilmişdir. İaşə xidmətlərinin həcmi keçən ilə nisbətən 6,3% artmışdır. İaşə xidmətinin 49.5 min manatı kiçik müəssisələr tərəfindən, 1640.5 min manatı isə fiziki şəxslər tərəfindən göstərilmişdir.

## NƏQLİYYAT

Rayonun iqtisadiyyatında nəqliyyatın rolu artmaqdadır. Doqquz ay ərzində nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən əldə olunmuş göstəricilər qənaətbəxşdir. Doqquz ay ərzində nəqliyyat sektorunda məhsul buraxılışı fiziki şəxslər üzrə 4442.6 min manat olmuşdur ki, bu da ümumi məhsul buraxılışının 3,4%-ni təşkil etmışdir. Keçən ilin müvafiq dövründə bu gostərici 4115.6 min manat olmuşdur. Doqquz ay ərzində yük daşınmasının həcmi 1142 min ton olmuş bu da əvvəlki dövrlə müqayisədə 5% çoxdur. Doqquz ay ərzində 10762 min nəfər sərnişin daşınmışdır. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 % çoxdur

## RABİTƏ

Doqquz ay ərzində rabitə sektorunda məhsul buraxılışının faktiki qiymətlərlə həcmi 811.3 min manat olmuşdur. Rabitədən əldə edilmiş gəlirin 680.6 min manatı və ya 83,9 faizi rayon əhalisinə göstərilmiş xidmətlərin hesabına yaranmışdır. Araşdırılan dövrdə əldə edilmiş gəlirin 17,6% şəhərlərarası və beynəlxalq rabitədən, 15,9% şəhər telefon rabitəsindən, 49,7% kənd telefon rabitəsindən,16,8 % isə abunə haqqından əldə edilmişdir. Əhalidən əldə edilmiş gəlirin həcminin 16,4 % şəhərlərarası və beynəlxalq telefon rabitəsindən, 14,8% şəhər telefon rabitəsindən, 54,7% kənd telefon rabitəsindən, 14,1 % abunə haqqından olmuşdur.

Doqquz ay ərzində poçt rabitəsindən 142.6 min manatlıq gəlir əldə olumuşdur ki, bunun da 130.5 min manatı əhali tərəfindən ödənilmiş xidmətin dəyəridir. Doqquz ay ərzində 21441sifarişli məktub və banderolların göndərişi həyata keçirilmişdir. Daxil olan sifarişli məktub və banderolların sayı isə 37717 ədəd olmuşdur.

Poçt müəssisələri tərəfindən 471ədəd poçt bağlaması göndərilmiş, 2028 bağlama isə daxil olmuşdur. Daxil olan bağlamanın 55 beynəlxalq bağlama olmuşdur. 258 ədəd sürətli poçt göndərişi həyata keçirilmişdir.

## ƏMƏK BAZARI

2015-ci ilin doqquz ay ərzində rayonda 47.8 min nəfər iqtisadi fəal əhali olmuşdur. İqtisadi fəal əhalinin 47.1 min nəfəri iqtisadiyyatda məşğul olanlar, 740 nəfəri isə məşğulluq orqanlarında rəsmi qeydiyyatda olan işsizlərdir. Məşğul olan əhalinin 11500 nəfəri və yaxud 24,9% muzdla işləyir. Muzdla işləyənlərin 3200 nəfəri maddi istehsal sahələrində, 8300 nəfəri isə xidmət sahələrində çalışır. Fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin 80,1% dövlət ,19,9 % qeyri-dövlət mülkiyyət növləri üzrə işləyir. İqtisadi fəaliyyət növlərinə uyğun olaraq muzdla işləyən işçilərin 5,0% kənd təsərrüfatında, 5,9% sənayedə, 1,2% tikintidə, 2,9 % topdan və pərakəndə ticarətdə, 6,6% nəqliyyat və rabitədə, 1,0 % maliyyə vasitəçiliyində, 5,9% dövlət idarəetməsi və məcburi sosial təminatda,39,8% təhsildə, 20.2% səhiyyədə, 9,3% kommunal və sosial xidmətlərində, 2,2 % digər fəaliyyət sahələrində olmuşdur.

## YENİ İŞ YERLƏRİNİN AÇILMASI

"Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. 2003-cü ildən 2015-ci ilin üçüncü rübünün sonunadək rayonda 9161-i daimi olmaqla 11359 yeni iş yeri açılmışdır. 2015-ci ilin 9 ayı ərzində 684 yeni iş yeri açılmışdır ki, bunun da 384-ü daimi iş yeri, 250-i isə müvəqqəti iş yeridir.

**Faiq PAŞAYEV,**
**Qazax rayon Statistika İdarəsinin rəisi**

# Daha təkmil statistika daha yaxşı həyat

**Birləşmiş Millətlər Təşkilatı Baş Asambleyasının qəbul etdiyi qətnaməyə əsasən 20 sentyabr "Ümumdünya Statistika Günü" kimi qeyd olunur.**

İstehsal münasibətlərinin inkişaf tarixi aydın şəkildə göstərir ki, statistika məlumatı olmadan dövləti idarə etmək, sosial-iqtisadi məsələləri həll etmək mümkün deyildir. Ölkənin əhalisi, müəssisələri, bankları, kəndli təsərrüfatları və sair haqqında elmi işlənmiş hərtərəfli məlumatın olmasının təmin edilməsi xüsusi statistika xidmətinin təşkil olunmasını tələb edir. Statistika həm müəssisələrin, həm də ölkənin idarə olunması üçün vacib şərtdir.

Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında uçot və statistikanın Beynəlxalq standartlara uyğun qurulması zərurətə çevrilmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyev çox vaxtında Azərbaycan Respublikasında beynəlxalq praktikada qəbul edilmiş statistika sisteminə keçirilməsi haqqında 11 avqust 1992-ci il tarixli fərman vermişdir.

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi hadisələrin daha hərtərəfli təhlili, milli iqtisadiyyatımızın idarə edilməsinin mühüm vasitəsi olan statistikanın qarşısına yeni vəzifələr qoymuşdur.

Statistika hər şeydən əvvəl sosial-iqtisadi vəziyyəti əks etdirən obyektiv, tam və dolğun məlumatlar toplamaq və onu hərtərəfli inkişaf etdirmək nəticəsində ölkənin iqtisadi inkişafını təmin edən və elmi cəhətdən əsaslandırılmış təkliflər verməkdir.

2015-ci il oktyabrın 20-də Qazax rayon Statistika İdarəsində "Ümumdünya Statistika Günü"nə həsr olunmuş təntənəli iclas keçirilmişdir. İclasda rayon statistika idarəsinin işçiləri, mətbuat nümayəndələri və rayon statistika idarəsinə hesabat təqdim edən müəssisə və təşkilatların nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Statistika İdarəsinin rəisi Faiq Paşayev "Ümumdünya Statistika Günü" ilə əlaqədar tədbir iştirakçılarına geniş məlumat vermişdir. O, qeyd etmişdir ki, Azərbaycan Respublikası "Ümumdünya Statistika Günü"nün qeyd olunmasına xüsusi önəm verərək BMT-nin Baş Asambleyasının qəbul etdiyi qətnaməyə həm müəllif kimi qoşulmuşdur. Azərbaycanın Statistika işçiləri üçün bu həm də ölkəmizdə rəsmi statistikanın 95 yaşının tamam olması ilə əlamətdardır. Azərbaycanın Statistika orqanları bu günə çatmaq üçün 95 illik çətin yol keçmiş yalnız ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq layiq olduğu dəyərə malik dövlət qurumuna çevrilmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə milli kadrların yetişdirilməsi sahəsində uzaqgörənliklə həyata keçirdiyi kadr siyasəti statistika sistemini də əhatə etmişdir. Bu dövrdə gənc milli kadrların statistika orqanlarında rəhbər vəzifəyə təyin olunması kütləvi xarakter almışdır. Onun göstərişi ilə 40-dan çox rayon və şəhər satatistika idarələri üçün inzibati binalar tikilmişdir. Ulu öndərin həyata keçirdiyı islahatlar çərçivəsində 18 fevral 1994-cü ildə imzalanmış "Statistika haqqında" Azərbaycan Respublikasının Qanunu Statistika sahəsində yeni dövrün başlanmasına təkan vermişdir.

Tədbirin sonunda rayon statistika idarəsinin işçilərindən 5 nəfərinə statistika sahəsində uzun illər səmərəli fəaliyyətinə görə rayon statistika idarəsinin Fəxri Fərmanı verilmişdir. Daha sonra isə statistika idarəsi ilə daha sıx əlaqə saxlayan 3 özəl müəssisə rəhbərinə rayon statistika idarəsinin Fəxri Fərmanı təqdim olunmuşdur.

**Çingiz RƏHİMOV,**
**Qazax rayon Statistika İdarəsinin rəis müavini.**

# "Mənim bayrağım-mənim fəxrim"

**Mərkəzi kitabxana Sistemi şəhər 6 saylı körpələr evi-uşaq bağçasında Azərbaycan Bayrağı Gününə həsr olunmuş "Mənim bayrağım-mənim fəxrim" adlı ədəbi-bədii kompozisiya keçirmişdir.**

Tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilmişdir.

MKS-nin direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açmış, 9 noyabr Dövlət Bayrağı Günü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir.

Şəhər 6 saylı körpələr evi-uşaq bağçasının müdiri Şəfiqə Əmiraslanova, tərbiyəçi müəllimlər Hürü Abdulkərimova, Elnarə Paşayeva, Ülviyyə Musayeva çıxışlarında bayrağın onun məxsus olduğu dövlətin, millətin varlığı qədər qiymətli, şərəfli olduğunu, bayrağın hər bir dövlətin, vətəndaşın qürur mənbəyi kimi qiymətləndirildiyini söyləmişlər.

Tədbirin bədii hissəsində körpə fidanlar üçrəngli Azərbaycan Bayrağına həsr olunmuş şeirlər söyləmiş, şən mahnılar oxumuş və rəqs etmişlər.

# BİRİNCİLİK KEÇİRİLMİŞDİR

**Xanlıqlar kənd orta məktəbin idman zalında 9-10 və 12-13 yaşlı yeniyetmələr arasında rayon Birinciliyi keçirilmişdir. Yunan-Roma güləşi üzrə keçirilən birincilikdə 66 nəfər idmançı qalib adı uğrunda mübarizə aparmışdır. Zona yarışlarına vəsiqə qazanmış idmançılara rayon Gənclər və İdman İdarəsinin təsis etdiyi Diplomlar təqdim olunmuşdur. Aşağıda adları qeyd olunan idmançılar qalib adını qazanmışdır.**

1. Elgün Əhmədov - Kosalar, 9-10 yaş, 26 kq
2. Zamir Əliyev - Xanlıqlar, 9-10 yaş, 29 kq
3. Məhəmməd Bayramov - Qazax, 12-13 yaş, 29 kq
4. Süleyman Əliyev - Xanlıqlar, 9-10 yaş, 32 kq
5. Yusif İsmayılov - İdman klubu, 12-13 yaş, 32 kq
6. İsmət Rəcəbov - Xanlıqlar, 9-10 yaş, 35 kq
7. Əziz Quluzadə - Kosalar, 12-13 yaş, 35 kq
8. Hikmət Rəcəbov - Xanlıqlar, 12-13 yaş, 38 kq
9. Fərid Məmmədov - İdman klubu, 9-10 yaş, 42 kq
10. Sənan Yolçuyev - Xanlıqlar, 12-13 yaş, 42 kq
11. Fərman Alıyev - Xanlıqlar, 12-13 yaş, 47 kq
12. İmran Əhmədzadə - Kosalar, 12-13 yaş, 59 kq
13. Səbuhi Əlizadə - Kosalar, 12-13 yaş, 66 kq
14. İlkin Yusifov - Xanlıqlar, 12-13 yaş, 70 kq

Növbəti rayon Birinciliyi isə şəhər stadionunda keçirilmişdir. 2002-2003-cü il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə keçirilən birincilikdə 169 nəfər qalib adı uğrunda mübarizə aparmışdır. Qaliblər rayon Gənclər və İdman İdarəsinin təsis etdiyi Diplomla mükafatlandırılmışdır. Adları qeyd olunan idmançılar mükafata layiq yerlər tutmuşlar.

1. Ruslan Əliyev - 26 kq, Qazax, Gİİ
2. Arzuman Dərgahquluyev - 29 kq, Kəmərli, UGİM
3. Səxavət Qarayev - 32 kq, Şıxlı, Göyəzən
4. Şamil İsmayılov - 35 kq, Şıxlı, Göyəzən
5. Orxan Süleymanov - 38 kq, Olimpik
6. Coşqun Nəbiyev - 42 kq, Hüseynbəyli, Gİİ
7. Xəqan Osmanov - 47 kq, Qazax, UGİM
8. Əli Əlizadə - 53 kq, Kosalar, Gİİ
9. Cavid Əmiraslanov - 59 kq, Olimpik
10. Tapdıq Paşayev - 59 kq, Kəmərli, UGİM
11. Elcan Nağıyev - 66 kq, Olimpik
12. Alı Bəbirov - 70 kq, Kəmərli, UGİM
13. Kamil Mehtiyev - 75 kq, Dəmirçilər, Gİİ

**İsa NAMAZLI,**
**AJB-nin üzvü.**

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*